

Ağasəfa

Yad sözlər əriyir, çökür qanlara,
Bu qanı zayların əlacı gərək.
Uca kürsülərdə hıqqananlara
Bu dilin dil bilən dilmancı gərək.

Dilbilməz yad sözü gövşək eylədi,
Qırıldı dilimdə zərif ilmələr.
Əcəb işə saldı, işlək eylədi
Bu yad kəlmələri bu yad gəlmələr.

Ana dilimizə yad sözlər dolur,
Ana dilimizin qoruqçusu yox.
Ana sözlərimiz lal-dinməz qalır,
Alimin dilində sözün duzu yox.

Uyub yad sözlərə neçə bəy, ağa,
Dili də salıblar dəyiş-düyüşə.
Ana sözlərimiz qalxsın ayağa,
Ana sözlərimiz girsin döyüşə!

Yad dillər, yad sözlər dolur bu yurda,
Ana dilimizi yad dillər əmir.
Daşlar quzulayır çöldə, bayırda,
Ana sözlərimiz doğub törəmir.

Qulağa yad gələn adlar səslənir,
Sözü tükəndimi bu dəm Qorqudun?
Burda yadlar dinir, yadlar səslənir,
Goru çatladımı Dədəm Qorqudun?

Qınına çəkilib dilçi qardaşlar,
Qulaq ver, nə qədər dil topuq çalır.
Alışa-verişə qarışıb başlar,
Ana sözlərimiz enir-alçalır.



**Hazırladı: Narıngül**